## Tələbələrin ali və orta təhsil müəssisələrinə köçürülməsi ilə bağlı MƏLUMAT

Azərbaycanın və xarici ölkələrin ali və orta tibb təhsili müəssisələrindən tələbələrin Azərbaycandakı digər ali və orta təhsil müəssisələrinə köçürülməsi məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinin saytında (www.transfer.edu.az) qış və yay tətil dövründə müəyyən edilmiş müddətdə qeydiyyatdan keçdikdən sonra aşağıda göstərilən sənədlərin Təhsil Nazirliyinə (electron formada) və Səhiyyə Nazirliyinə (kağız formasında) təqdim etməyiniz zəruridir:

| **Ali tibb təhsili** | **Orta tibb təhsili** |
|---|---|
| - Ərizə;<br>- Şəxsiyyəti təsdiq edən sənədin surəti;<br>- Köçürülmə səbəblərini təsdiq edən sənədlər (səhhəti ilə bağlı arayışlar, ailə qurması haqqında şəhadətnamə və s.);<br>- Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi imtahanlarda iştirak etdiyi halda topladığı bal və həmin ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq istiqamət üzrə minimal keçid balı barədə DİM-dən arayış;<br>- Akademik arayış (akademik transkript) - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəd;<br>- Təhsil haqqı borcunun olmaması;<br>***Xaricdən köçürülənlər üçün əlavə olaraq:***<br>- Ali təhsil müəssisəsinə qəbul olunarkən topladığı bal və ya DİM tərəfindən keçirilən imtahanlarda iştirak etməməsi haqqında sənəd;<br>- Xaricdə təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər;<br>***Xaricdən köçürülənlər və ya ölkə ali təhsil müəssisələrinə bu imtahanların nəticələri ilə qəbul olunanlar üçün əlavə olaraq:***<br>- Beynəlxalq səviyyəli imtahanlarda (SAT, TOEFL, İELTS və s.) qazandıqları nəticələri təsdiq edən rəsmi sənədlər;<br>***Əcnəbi vətəndaşlar üçün əlavə olaraq:***<br>- Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin olması barədə Dövlət Miqrasiya Xidmətindən arayış **(arayış 20 gün ərzində verilir).** | - Ərizə;<br>- Şəxsiyyəti təsdiq edən sənədin surəti;<br>- Köçürülmə səbəblərini təsdiq edən sənədlər (səhhəti ilə bağlı arayışlar, ailə qurması haqqında şəhadətnamə və s.);<br>- Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzini (DİM) keçirdiyi imtahanlarda iştirak etdiyi halda topladığı bal və həmin ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq istiqamət üzrə minimal keçid balı barədə DİM-dən arayış;<br>- Akademik arayış (akademik transkript) - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəd;<br>- Təhsil haqqı borcunun olmaması.<br>***Xaricdən köçürülənlər üçün əlavə olaraq:***<br>- Orta təhsil müəssisəsinə qəbul olunarkən topladığı bal və ya DİM tərəfindən keçirilən imtahanlarda iştirak etməməsi haqqında sənəd;<br>- Xaricdə təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər;<br>***Əcnəbi vətəndaşlar üçün əlavə olaraq:***<br>- Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin olması barədə Dövlət Miqrasiya Xidmətindən arayış **(arayış 20 gün ərzində verilir).** |

**Müəyyən edilmiş müddətdə (www.transfer.edu.az) portala elektron ərizə ilə müraciət edilmədiyi halda köçürülmə məsələsinə baxılması mümkün olmayacaq.**